No: 04 2025
https://doi.org/10.64400/ea25-4-24
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCANDA UNESCO MƏDƏNİ İRSİNƏ DAXİL OLAN ABİDƏLƏRİN MÜHAFİZƏSİNİN ƏHƏMİYYƏTİ

**Gunay MUSAYEVA**
Baku State University, Bakı, Azərbaycan
**Yazışılan müəllif: gunaymusayeva90@bsu.edu.az*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 05.12.2025*
*Nəşr edilmə tarixi: 22.12.2025*

**AÇAR SÖZLƏR:**
mədəni irs, abidə, UNESCO, maddi və qeyri-maddi irs, şifahi ənənələr, tarixi yerlər

**XÜLASƏ**
Təqdim edilən məqalədə Mədəni turizmin inkişaf amilləri araşdırılmışdır. Azərbaycanda olan maddi və qeyri-maddi mədəni irsin yayıldığı coğrafi ərazilər qeyd edilmişdir. Bu irslərin illər üzrə mərhələli şəkildə UNESCO-nun mədəni irs siyahısına daxil edilməsi və qorunub saxlanılması araşdırılmışdır. Toxunması mümkün olan bütün mədəni irslər maddi mədəni irslərdir. Qeyri-maddi isə əksinədir. Mücərrəd formalı toxunması mümkün olmasa da xalqın mənəvi həyatını əks etdirən maddi olmayan irsdir, ona görə də qeyri-maddi mədəni irs adlanır. Qeyri-maddi mədəni irsə xalqın yaratdığı şifahi ənənələr, mərasimlər, ifaçılıq sənətləridir. Azərbaycanda UNESCO-nun mədəni irs siyahısına daxil olan abidələrin qorunması milli kimliyin, tarixi yaddaşın və mədəni müxtəlifliyin saxlanması baxımından mühüm əhəmiyyət daşıyır. Bu abidələr təkcə xalqımızın keçmişini deyil, həm də bəşəriyyətin ortaq mədəni sərvətini təmsil edir. Onların bərpası və mühafizəsi həm dövlət, həm də ictimai təşəbbüslərin birgə fəaliyyəti ilə həyata keçirilməlidir. Qobustan qaya rəsmləri, İçərişəhər, Şəki Xan Sarayı kimi irs nümunələri Azərbaycanın qədim sivilizasiya mərkəzi olduğunu sübut edir. Bu abidələrin qorunması gələcək nəsillərə milli dəyərlərin ötürülməsində mühüm rol oynayır. UNESCO statusu həm də beynəlxalq əməkdaşlığı və turizm potensialının artmasını təmin edir. Buna görə də bu irsin qorunması yalnız mədəni məsələ deyil, həm də strateji inkişaf istiqamətidir.

## GİRİŞ

UNESCO-ya görə mədəni irs onu bir xalqın və ya bir topluluğun sənətkarlarının, memarlarının, musiqiçilərinin, yazıçılarının və müdriklərinin əsərləri məcmuəsi olaraq təyin edir. Bu mədəni məhsullar, həyata məna verən anonim yaradıcılıqları və dəyərləri, yəni o şəhərin və ya icmanın sakinlərinin yaradılışının təcəlli etdiyi maddi və qeyri-maddi nemətləri əhatə edir. Bu mədəni varlıqların nümunələri dil, ayinlər, inanclar, tarixi yerlər və abidələr, ədəbiyyat, sənət əsərləri və arxiv və kitabxanalardır. Bir sözlə, mədəni irs bir cəmiyyətin mövcud olduğu müddət ərzində yığdığı əhəmiyyətli dəyərlərin məcmusudur. Öz mədəniyyətinin ifadəsi kimi qorunması, yayılması və qorunması lazım olan varlıqlar və ya eyni olan bir ərazinin mədəni şəxsiyyətinin ifadəsidir. Mədəni obyektin Dünya İrs Siyahısına daxil edilməsi şərtləri UNESCO-nun Dünya mirasları Komitəsi tərəfindən təyin olunmuş və yerləşdikləri ölkənin dövlət orqanları tərəfindən qorunması zəmanət edilmiş, bütün dünya üçün əhəmiyyətli bir dəyər daşıdığı qəbul edilən təbii və mədəni abidələrin siyahısıdır. Dünya Mədəniyyət Mirasları siyahısının yaradılmasında məqsəd, bütün insanlara məxsus olan dəyərlərin qorunmasında beynəlxalq əməkdaşlığı həyata keçirməkdir. Nizamlı olaraq yenilənən siyahıya 2004 ildən etibarən 134 ölkəyə aid 788 abidə daxil edilmişdir. Bunların 617-si mədəni, 154-ü təbii, 23-ü isə mədəni və təbii abidələrdir. 1972-ci ildə UNESCO 38 maddədən ibarət qətnaməni qəbul etdi. Qətnamədə hamı tərəfindən ümumdünya irsinin bir nəfər kimi qorumalı olduğu qeyd edilirdi. Qətnaməyə 175 dövlət qoşulmuşdur. Bunlardan 21 dövlət Ümumdünya irsinin idarə heyətinin üzvüdür. Ümumdünya irsi dünyada olan nadir abidə və təbii qoruqların qorunması ilə məşğul olur. Bu idea Ümumdünya irsinin rəsmi loqosundada əks olunmuşdur.

Mədəni abidələr xalqların, qəbilələrin tarixi və milli adət-ənənələrini əks etdirən əsas obyektlər sayılır və onlar mədəni turizmin inkişafına təsir edən turizm obyektləri kimi qiymətləndirilir. Mədəni turizm turizmin elə fəaliyyət növüdür ki, burada turistin (ziyarət edən) əsas motivasiyası turistik məkanda maddi və qeyri-maddi mədəni cazibə sahələrini və ya məhsullarını öyrənmək, kəşf etmək, təcrübə və tədqiqat aparmaq və istehlak etməkdir. Mədəni turizmin inkişafı hər hansı bir cəmiyyətin fərqli maddi, mənəvi intellektual, emosional xüsusiyyətləri ilə əlaqədardır. Mədəni turizmə memarlıq abidələri, tarixi və mədəni irs, kulinariya irsi, ədəbiyyat, musiqi və yaradıcılıq sənayesi daxildir.

Mədəni turizm təcrübələrinə memarlıq və arxeoloji xəzinələr, kulinariya, festivallar və tədbirlər, tarixi və ya miras yerləri, abidələr, muzeylər və sərgilər, görməli yerlər, vəhşi təbiət ziyarətgahları və milli parklarda olan mədəni tarixi abidələr, dini məkanlar yəni məbədlər, kilsələr, məscidlər və s daxildir. Həmçinin şəhər ərazilərində olan teatrlar kimi obyektlər də daxildir.

Mədəni abidələrin olduğu ərazilərə mövsümündən asılı olmayaraq il boyu turlar təşkil etmək olur. Mədəni turizmdə həlledici rolu insanların dünyanın müxtəlif hissələrinin mədəni identifikasiyaları haqqında görmək və öyrənmək arzusu tutur. Beynəlxalq turizmdə mədəni irs digər mədəni irslərin qarşılıqlı anlaşmasını və hörməti stimullaşdırır (2, s. 127).

## ƏSAS HİSSƏ

Dünyanın bir sıra ölkələrində mədəni və təbii ehtiyatların mühafizəsi mühüm rola malikdir. Böyük Britaniya, Almaniya, Norveç, ABŞ, Polşa kimi ölkələrin həyatında mədəni landşaftın əhəmiyyəti böyük olduğu üçün bu ölkələrdə onların mühafizəsi də xüsusi üsullarla gerçəkləşdirilir. Hər bir ölkənin fərqli qurumları tərəfindən bu mühafizə təşkil olunur: Norveç və Finlandiyada Ətraf Mühitin Mühafizəsi Nazirliyi, İsveçdə və İtaliyada Mədəniyyət Nazirliyi, ABŞ – da Milli Parkların Qorunması Departamenti, Azərbaycanda isə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qəbul edilmiş qaydalar və qərarlar əsasında mühafizə olunur. 1948-ci ildə Ümumdünya deklarasiyasına əsasən mədəni ehtiyatlar bəşəriyyətin sivilizasiyasını, xalqların mədəniyyətini, adət-ənənənələrini və tarixini özündə əks etdirir. 1966-cı ildən etibarən beynəlxalq aləmdə mədəni irs nümunələri iqtisadi, sosial və mədəni cəhətdən əhəmiyyətli meyara çevrilərək ölkələrin əsas diqqət mərkəzində oldu. İnsanlar incəsənət nümunələri ilə maraqlanır hətta bu obyektlərdən elmi cəhətdən istifadə edə və müəyyən araşdırmalar apara bilərdi. Beynəlxalq mədəni irsin aşkar edilərək onun mədəni irs kimi qiymətləndirilməsi və müəyyən təsnifat sistemlərinə aid edilməsi haqqında ilkin fikirlər ilk dəfə olaraq 14 may 1954-cü ildə Haaqa Deklarasiyasında qəbul edilmişdir. Beynəlxalq mədəni irsin qorunması və yenidən bərpa olunması haqqında isə 16 noyabr 1972-ci ildə yenə Haaqa Konvensiyasında qəbul edilmişdir. Bu maddələrdə xalqlar və cəmiyyətlər arasında qarşılıqlı hörmət və anlaşmanın formalaşmasında turizmin rolu, turizm fərdi və kollektiv inkişaf vasitəsi kimi, turizm davamlı inkişaf amili kimi, turizm bəşəriyyətin mədəni irsindən istifadə edən və onun zənginləşməsinə töhfə verən sahə kimi, turizm qonaq qəbul edən ölkələr və icmalar üçün faydalı fəaliyyət növü kimi, turizmin inkişafında maraqlı tərəflərin öhdəlikləri, turizm hüququ, turistlərin hərəkət azadlığı, turizm sənayesində işçilərin və sahibkarların hüquqları və turizmin qlobal etik prinsiplərinin icrası nəzərdə tutulmuşdur.
UNESCO-ya görə mədəni irs bir neçə kateqoriyaya bölünür:
**1.** Maddi mədəni irs - Abidələr, binalar, arxeoloji yerlər, tarixi yerlər və ağaclar, mağaralar, göllər, dağlar və başqaları kimi "təbii" elementlərdən ibarətdir. Maddi mədəni irs 3 yerə bölünür.
a. daşına bilən mədəni irs (rəsmlər, heykəllər, sikkələr, əlyazmalar)
b. daşına bilməyən (abidələr, qədim binalar, arxeoloji yerlər və s.)
c. Sualtında olan mədəni irs (gəmi qəzaları, sualtı xarabalıqlar və şəhərlər)
2. Qeyri-maddi mədəni irs – şifahi ənənələr, ifaçılıq sənətləri, rituallar və s.
3. Silahlı münaqişələr nəticəsində yaranan irs **-** Müharibələr, qarşıdurmalar və ümumiyyətlə iki və ya daha çox ziddiyyətli münaqişələr fraksiyaları həmişə mədəni irsin bütövlüyünə ciddi təhlükə törətmişlər. Bu baxımdan Ermənistanın təcavüzü, çoxsaylı hücumları və təxminən 1990-cı illərdən 2020-ci ilədək 30 illik bir müddətdə işğal altında qalan və zəngin təbii və mədəni irsə malik olan Qarabağ və onun ətraf rayonları tamamilə dağıdılmışdır. Həmçinin Mədəni irslər tamamilə dağıdılmış və ya qismən məhv edilmişdir. Lakin 44 günlük II Qarabağ müharibəsində işğal altında olan ərazilər erməni təcavüzkarlarından azad edildikdən sonra Cənab prezident İlham Əliyev tərəfindən Mədəni irsin yenidən bərpası üçün əmr və sərəncamlar vermişdir. Ermənistanın təcavüzkar siyasi dünyası II Qarabağ müharibəsindən sonra böyük siyasi şok yaşamışdır. Lakin Qarabağın mədəni irsinə daxil olan daşına bilən maddi mədəni irs nümunələrinin bir hissəsini oğurlayaraq Yerevana (İrəvana) aparmışdır. 30 il ərzində Ermənistan Qarabağda mədəni irsə daxil edilə biləcək hərbi turizmdə istifadə olunacaq yeni bir irs yaratmışdır. Belə ki Xaçşəkilli heçbir silah tərəfindən dağıdıla bilməyəcək 2 və

3 mərtəbəli tunellər yaratmışdır. Bundan əlavə yeraltında maraqlı və müxtəlif bərk və ağır materiallardan istifadə edərək bunkerlər yaratmışlar.
4. Təbii irs – mədəni landşaftlar, geoloji, bioloji və fiziki formasiyalar. Maddi daşınmaz mədəni irsi daşınması mümkün olmayan müasir və qədim yerlər, binalar, mühəndis işləri, sənaye mərkəzləri, memarlıq kompleksləri, tipik ərazilər və memarlıq, arxeoloji, tarixi nöqteyi-nəzərdən maraqlanan və ya müvafiq dəyəri olan abidələrdən ibarət olan maddi daşınmaz irslərdir. Bu mədəni sərvətlər müəyyən faktorlara görə ərazidən ayrılmaz olduqları üçün (məsələn, arxeoloji sahə) bir yerdən başqa yerə köçürülə bilinmədiyui üçün maddi və daşınmaz mədəni irs adlanır. Dünyada ən böyük maddi daşınmaz irs turizm mərkəzinə çevrilən yerlərdən biri Misir pramidaları və ehramlarıdır. Daşınmaz mədəni irslər ərazinin zənginliyi, qədimliyi, mədəni təzahürlərin, hərəkətlərin və üslubların və s bir çox xüsusiyyətlərindən xəbər verir. Azərbaycanda maddi daşınmaz və hələ də sirlərlə dolu olan İçərişəhər Dövlət Təbiət Qoruğu və Qız Qalası, Alban kilsələrinin nümunə göstərmək olar. Hal hazırda İçərişəhər Dövlət Təbiət Qoruğu Azərbaycanın mühüm turizm mərkəzinə çevrilmişdir.

Abidə daşınmaz mədəni irsin bir nümunəsi olaraq tarixi əhəmiyyətli bir hadisəyə və ya tarixi bir şəxsə xatirə olaraq qoyulan nişangah, heykəl və s. və ya qədim dövrlərə aid mədəniyyət əsərləridir. Xalqın, ölkənin, hadisələrin, obyektlərin, ədəbiyyat və kinofilm personajlarının tikili, qurğu, oxşadılan fiqurlardır. Ölkənin, xalqın, bəşəriyyətin maddi sərvətinin bir hissəsi, bədii və tarixi dəyəri olan tikilidir. Görkəmli şəxsiyyət və tarixi hadisələrin şərəfinə yaradılan heykəltəraşlıq və memarlıq əsərləridir. Abidənin ən çox yayılmış tipi əslindən böyük olan heykəltəraşlıq fiquru, yaxud kompozisiyasıdır.

Abidə postament üzərində və adətən, görkəmli yerdə, yaxud tarixən müəyyən hadisə ilə bağlı yerdə qoyulur. Sənət nümunələri olan qədim qəbirüstü daşlar da xüsusi mədəni Abidələr tipinə aiddir. Məsələn Azərbaycanda Qobustan qayaüstü abidləri daşınmaz maddi mədəni turizm abidələrinə çevrilmiş və daxili və xarici turistlərin maraq obyektlərindən birinə çevrilmişdir. Qarabağda və onun ətraf rayonlarında I və II Qarabağ müharibləri dövründə və 30 illik işğal dövründə Abidələr çox zərər görmüş və hətta bəziləri tamamilə qəsdən məhv edilmişdir.Lakin Cənab Prezident, Ali baş komandan İlham Əliyevin xüsusi göstərişi ilə Qarabağda və xüsusən Şuşada tarixi və mədəni abidələr yenidən bərpa edilir. Prezidentin 2021ci il 7 may tarixli sərəncanına əsasən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri seçilmiş və burada olan dünya əhəmiyyətli mədəni abidələr yenidən bərpasına başlanmışdır.
Abidələrin növləri - Abidələr daşınar (səyyar) və daşınmaz (stasionar) ola bilər. Daşınar abidələr muzeylərdə, arxivlərdə, fondlarda, sərgilərdə və digər münasib yerlərdə yerləşdirilə bilər. Daşınmaz abidələr əksər hallarda arxeoloji və memarlıq abidələri olmaqla olduğu və inşa edildiyi yerlərdə qorunur.

Arxeoloji abidələr dedikdə isə ibtidai insan düşərgələri, qədim yaşayış məskənləri, müdafiə istehkamları, ziyarətgahlar, qədim insanların yaratdıqları alətlər, əşyalar, qayaüstündə, daşüstündə təsvirləri, qədim yeraltı və yerüstüyollar, körpülər və onların qalıqları, kəhrizlər və s nəzərdə tutulur. Memarlıq abidələri isə xüsusi memarlar tərəfində dizaynlı müxtəlif təyinatlı memarlıq-inşaat binaları, yardımçı obyektlər, mühəndis kommunikasiyaları, şəhərsalma abidələri, memarlıq, tarixi-mədəni sənətkarlıq abidələri və tikililər ilə tutulan əsasən qala divarları ilə əhatə olunan yaşayış məntəqələri, bağlar, xiyabanlar, parklar, incəsənət nümunələri, müasir dövrün memarlıq abidələri və s. Tarixi abidələr birbaşa dövlətə və xalqa məxsus olan müharibə və milli azadlıq hərəkətləri ilə bağlı olan, Milli Qəhrəmanların görkəmli elm və incəsənət xadimlərinin həyatı ilə bağlı xatirə yerlər,yaşadıqları evlər, sənədlər və əşyalar bir sözlə xalqın maddi və mənəvi, ideoloji həyatını özündə əks etdirən əşyalar, epiqrafiq abidələr-üzərində yazılar olan müxtəlif daş, gil, ağac və metal nümunələridir. Sənədli abidələrə rəsmi dövlət orqanlarına məxsus olan rəsmi sənədlər toplusu yəni foto, kino arxivləri, nadir çap əsərləridir. İncəsənət abidələri tarixi və estetik dəyəri olan dekorativ sənət nümunələridir. (4, s. 35)

Daşınmaz maddi mədəni abidələrə həmçinin qoruqları da aid etmək olar. Belə ki Qoruqlar da həmçinin tarix və mədəniyyət üçün böyük əhəmiyyəti olan, dövlət tərəfindən mühafizə edilən ərazilərdir. Abidələr dünya, ölkə və yerli əhəmiyyətli olmaqla 3 yerə bölünür. Abidələrin mühafizə

zonası vardır. Abidələrin mühafizə zonası abidələrin qorunması və xarici görünüşünə xələl gətirməmək məqsədi ilə abidələrin yerləşdiyi sahənin ətrafında abidənin xarakterinə görə müəyyən edilən əlavə tənzimləmə zonasıdır. Mədəni irsin qorunmasında mühüm rola malik olan beynəlxalq təşkilat UNESCO özünəməxsus olan planında üzv ölkələrə qarşı irəli sürdüyü siyasi hədəflər aşağıdakı beş məqsəddən ibarətdir.




Azərbaycandan UNESCO-nun siyahısına ilk dəfə 2003-cü ildə qeyri-maddi mədəni irs nümunəsi daxil edilmişdir. Bu Azərbaycan muğamıdır. Muğamda qədim bardlar (Qədim keltlərdə şair-nəğməkarlar) melodyalarından və ritmlərindən istifadə edilir. Azərbaycan muğamı klassik və akademik sənət sayılır. Muğam bəzən təmtəraq bəzən də kinayə məqsədilə oxunur. Azərbaycan muğamı özündə Azərbaycan tarixini, onun qədimiliyini və qonşu ölkələrlə münasibətini əks etdirir. Azərbaycan muğamının səsləndirilməsi üçün tar, kamança və dəf (iri formalı qaval növü) kimi musiqi alətlərindən istifadə olunur. Kişi və ya qadın xanəndə isə muğamı səsləndirir. 2009-cu ildə Azərbaycanın daha bir qeyri-maddi mədəni irs nümunəsi olan Aşıq sənəti UNESCO-nun siyahısına daxil edilmişdir. Aşıq sənəti poziya,nağılçılıq, rəqs və vokal-instrumental musiqini ənənəvi ifaçılıq sənətində birləşdirib. Ümumi milli sənət tarixini birləşdirən aşıq sənəti simli alət Sazın müşayiəti ilə səsləndirilir. Aşıq sənəti ölkədə yaşayan ləzgi, tat, avar, talış və s kimi bütün azsaylı xalqları özündə birləşdirir. (5, s. 53)

2010-cu ildə isə Azərbaycanda xalçatoxuma UNESCO-nun qeyri-maddi mədəni irs nümunəsi siyahısına daxil olmuşdur. Naxışa, formasına, bəzəyinə və qədimiliyinə görə Azərbaycan xalçaları dünyada tanınır. Azərbaycanın ürəyi olan Qarabağda xalçaçılıq inkişaf etmişdir. İşğala qədərki dövrdə demək olar ki hər evdə müxtəlif rənlərdə və formalarda xalça toxunurdu.

Beləliklə 2012-ci ildə uzunboğazlı simli musiqi aləti olan tar Azərbaycanın irs nümunəsi olaraq UNESCO-nun siyahısına daxil edilmişdir. 2014-cü ildə Azərbaycanda ipək parçadan Kəlağayının istehsalı və qadınların baş örpəyi kimi istifadəsi də UNESCO-nun mədəni irs siyahısına daxil edilmişdir. 2015-ci ildə alimlərimizin ölkəmizin rəhbər şəxslərinin təşəbbüsü ilə lahıc misgərliyi də UNESCO-nun irs siyahısına daxil edilmişdir. 2016-cı ildə çörək, lavaş və yuxa bişirmə və paylanması, yeni il kimi qeyd edilən milli Novruz bayramı da Azərbaycana məxsus mədəni irs kimi UNESCO-nun siyahısına daxil edilmişdir. 2017-ci ildə yaylı-simli musiqi aləti olan kamança UNESCO-nun maddi mədəni irs nümunəsinə daxil edilmişdir. Milli kulinariyadan dolma yeməyi də Azərbaycan kulinariyasının ləziz yeməyi kimi UNESCO-nun siyahısına daxil edilmişdir. 2018-ci ildə Azərbaycanın əvəzolunmaz milli dastanı olan Dədə Qorqudun xalq nağılları və musiqisi də qeyri maddi mədəni irs nümunəsi olaraq UNESCO-nun siyahısına daxil edilmişdir. Həmçinin Yallı (Köçəri və ya Tənzərə) rəqsi Azərbaycan xalqına məxsusi qeyri-maddi mədəni irs nümunəsi kimi UNESCO-nin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

2020-ci ildə Azərbaycanın miniatür sənəti, Milli nar festivalı və mədəniyyəti, 2022-ci ildə isə ipəkçilik və toxuculuq üçün ənənəvi ipək istehsalı, Molla Nəsirəddinin deyimləri və lətifələri də qeyri-maddi mədəni irs nümunəsi kimi UNESCO-nun siyahısına daxil edilmişdir. 2022-ci ildə Ənənəvi zorxana oyunları, idman və güləş, pəhləvanlıq mədəniyyəti, qonaqpərvərliyin, qarşılıqlı sosial münasibətlərin göstəricisinin simvolu kimi çay mədəniyyəti UNESCO-nun qeyri-maddi mədəni irs siyahəsına daxil edilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azerbaijan: Candidate for membership in the Executive Council (seat from Europe) of the United Nations World Tourism Organization (UNWTO) for the period of 2013–2017. Baku: Golden Book, 2013.
2. Moshnyaga E.V. Concept "culturniy tourism" v sisteme conceptov megdunarodnogo tourisma // Znanie, ponimanie, umenie. 2003.№ 3. p.173–178.
3. Ümumdünya Turizm Təşkilatının on üçüncü Baş Assambleyası tərəfindən A/RES/406(XIII) saylı qətnamə ilə qəbul edilmiş kodeks (Santyaqo, Çili 27 sentyabr-1 oktyabr 1999)
4. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu
5. Məmmədova, G.Q. Turizm sahəsində dövlət siyasəti // Azərbaycanda və Rusiyada İnsan Coğrafiyası: XXI əsrdə inkişafının əsas yolları. İctimai- coğrafiyaçılarının beynəlxalq (Azərbaycan-Rusiya) elmi konfransının materialları, − Bakı: − 2019, − s. 68-72
6. https://ich.unesco.org/en/RL/art-of-azerbaijani-ashiq-00253

## SUMMARY

## THE İMPORTANCE OF PROTECTİNG UNESCO CULTURAL HERİTAGE MONUMENTS IN AZERBAİJAN

**Gunay Musayeva**

This article depicts the ancient historical tangible and intangible cultural monuments of Azerbaijan. It is written about the inclusion of these monuments in the UNESCO cultural heritage. The factors of UNESCO's cultural heritage protection are described. Finally, it was written about the inclusion of valuable monuments in Azerbaijan and the world in the UNESCO cultural heritage and the organization of their protection. The preservation of monuments included in UNESCO's World Cultural Heritage List in Azerbaijan is of great importance for maintaining national identity, historical memory, and cultural diversity. These sites represent not only the heritage of the Azerbaijani people but also part of the common cultural wealth of humanity. Their restoration and protection require joint efforts from both the state and society. Monuments such as Gobustan Rock Art, the Old City of Icherisheher, and the Palace of the Sheki Khans testify to Azerbaijan's ancient civilization. Protecting these sites ensures the transmission of national values to future generations. Moreover, UNESCO recognition strengthens international cooperation and enhances tourism potential. Therefore,

safeguarding this heritage is not merely a cultural duty but also a strategic direction for sustainable development.

**Key words:** *Cultural heritage, monument, UNESCO, tangible and intangible heritage, oral traditions, historical sites*

## РЕЗЮМЕ

## ВАЖНОСТЬ ЗАШИТЫ ПАМЯТНИКОВ, ВКЛЮЧЕННЫХ В КУЛТУРНОЕ НАСЛЕДИЕ ЮНЕСКО

**Гюнай Мусаева**

В этой статье описываются древние исторические материальные и нематериальные памятники Азербайджана, о включении этих памятников было написано в культурное наследие ЮНЕСКО и были показаны факторы сохранение культурного наследия ЮНЕСКО. В конце было написано о включении ценных памятников Азербайджана и мира в культурное наследие ЮНЕСКО и организации их зашиты. Охрана памятников, включённых в список культурного наследия ЮНЕСКО в Азербайджане, имеет огромное значение для сохранения национальной идентичности, исторической памяти и культурного многообразия. Эти объекты отражают не только прошлое азербайджанского народа, но и являются частью мирового культурного достояния. Их восстановление и защита должны осуществляться совместными усилиями государства и общества. Наскальные рисунки Гобустана, Ичеришехер и Дворец шекинских ханов подтверждают, что Азербайджан является древним центром цивилизации. Сохранение этих памятников способствует передаче национальных ценностей будущим поколениям. Кроме того, статус ЮНЕСКО укрепляет международное сотрудничество и развивает туристический потенциал страны. Таким образом, охрана культурного наследия — это не только культурная, но и стратегическая задача.

**Ключевые слова**: *культурное наследие, памятник, ЮНЕСКО, материальное и нематериальное наследие, устные традиции, исторические места*